https://doi.org/10.30546/114578.2026.3010.157

# TÜRK XALQLARININ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI VƏ TÜRKSOY-un ROLU

**Məhəmməd Hüseynov**
*tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı*
*https://ORCID.org/0009-0008-6428-8118*
*elchin.huseynov86@mail.ru*

**Xülasə**

Türk Dövlətləri Təşkilatı (TDT) və TÜRKSOY türk xalqlarının mədəni əlaqələrinin inkişafında mühüm rol oynayan qurumlardır. TDT türk dövlətləri arasında mədəni, iqtisadi və siyasi əməkdaşlığın təşviqində əhəmiyyətli addımlar atmış və Avrasiyada nüfuzlu bir təşkilat halına gəlmişdir. TDT-nin X Zirvə görüşü təşkilatın inkişafına böyük töhfələr vermişdir. Bu görüşlərdə əsas mövzular iqtisadi əməkdaşlıq, təhsil, elm, mədəniyyət, nəqliyyat, turizm, media, rəqəmsal texnologiyalar, idman və gənclik sahələri əhatə olunmuşdur. TÜRKSOY isə türk xalqlarının ortaq mədəni irsini qorumaq və tanıtmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirir, beləliklə, mədəni inteqrasiyanın təşviqinə xidmət edir. TÜRKSOY-un ən tanınmış təşəbbüsü "Türk Dünyasının Mədəni Paytaxtı" layihəsidir. Bu layihə çərçivəsində hər il bir şəhər mədəniyyət və turizmin inkişafına töhfə vermək məqsədilə mədəni paytaxt elan edilir. TÜRKSOY-un fəaliyyətinə həmçinin mədəni diplomatiya, elmi nəşrlər, və gənclər və yaradıcı şəxslərlə iş sahələri daxildir. Bununla yanaşı, təşkilatın maliyyə və struktural məhdudiyyətləri, həmçinin siyasi qeyri-bərabərliklər onun fəaliyyətinin tam potensialını həyata keçirməsini çətinləşdirir.

**Açar sözlər:** Türk Dövlətləri Təşkilatı (TDT), TÜRKSOY, mədəni əməkdaşləq, türk dünyasi, türk dünyasının mədəni paytaxtı, mədəni diplomatiya, rəqəmsal mədəniyyət.

# THE ROLE OF THE TUT AND TURKSOY IN THE DEVELOPMENT OF CULTURAL RELATIONS OF THE TURKISH PEOPLES

**Mahammad Huseynov**
*Agjabadi Branch of Azerbaijan State Pedagogical University*

**Abstract**

The article notes that the Organization of Turkic States (OTS) and TURKSOY are organizations that play an important role in the development of

cultural relations of the Turkic peoples. The OTS has taken significant steps in promoting cultural, economic and political cooperation between the Turkic states and has become an influential organization in Eurasia. The 10th Summit of the OTS has made great contributions to the development of the organization. The main topics covered in these meetings were economic cooperation, education, science, culture, transport, tourism, media, digital technologies, sports and youth. TURKSOY, on the other hand, carries out various activities to preserve and promote the common cultural heritage of the Turkic peoples, thus serving to promote cultural integration. TURKSOY's most well-known initiative is the "Cultural Capital of the Turkic World" project. Within the framework of this project, a city is declared a cultural capital every year in order to contribute to the development of culture and tourism. TURKSOY's activities also include cultural diplomacy, scientific publications, and work with youth and creative individuals. However, the organization's financial and structural limitations, as well as political inequalities, make it difficult for it to realize its full potential.

**Key words:** organization of Turkic States (OTS), TURKSOY, Cultural cooperation, Turkic world, "Capital of the Turkic World", Cultural diplomacy, Digital culture.

## РОЛЬ ТЮРКСОЙ И ОРГАНИЗАЦИИ ТЮРКСКИХ ГОСУДАРСТВ В РАЗВИТИИ КУЛЬТУРНЫХ СВЯЗЕЙ ТУРЕЦКИХ НАРОДОВ

**Мухаммед Хусейнов**
*Агджабединский филиал Азербайджанского государственного педагогичесого университета*

**Резюме**

В статье отмечается, что Организация Тюркских Государств (ОТГ) и ТЮРКСОЙ являются организациями, играющими важную роль в развитии культурных связей тюркских народов. ОТГ предприняла значительные шаги в продвижении культурного, экономического и политического сотрудничества между тюркскими государствами и стала влиятельной организацией в Евразии. 10-й саммит ОТГ внес большой вклад в развитие организации. Основными темами, затронутыми на этих встречах, были экономическое сотрудничество, образование, наука, культура, транспорт, туризм, СМИ, цифровые технологии, спорт и молодежь. С другой стороны, ТЮРКСОЙ осуществляет различные мероприятия по сохранению и популяризации общего культурного наследия тюркских народов, тем самым способствуя культурной интеграции. Наиболее

известной инициативой ТЮРКСОЙ является проект «Культурная столица тюркского мира». В рамках этого проекта каждый год один город объявляется культурной столицей, чтобы внести свой вклад в развитие культуры и туризма. Деятельность ТУРКСОЙ также включает культурную дипломатию, научные публикации и работу с молодежью и творческими личностями. Однако финансовые и структурные ограничения организации, а также политическое неравенство затрудняют реализацию ее полного потенциала.

**Ключевые слова:** Организация тюркских государств (ОТС), ТУРКСОЙ, культурное сотрудничество, тюркский мир, «Культурная столица тюркского мира», культурная дипломатия, цифровая культура

## Giriş/Introduction

Dost və qardaş türk dövlətlərinin dil, tarix və mədəniyyətindən güc alan TDT Avrasiyada sülh, sabitlik və rifaha önəmli töhfələr verərək regionun nüfuzlu təşkilatlarından birinə çevrilmişdir. Bu dövrdə TDT bir çox nüfuzlu təşkilatla əməkdaşlıq qurmuşdur [Həsənov, 2012:33].

Yarandıqdan sonra TDT-nin X Zirvə görüşü keçirilmişdir. Birinci Zirvə görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci ildə Almatı şəhərində baş tutmuşdur. İkinci Zirvə görüşü 22-23 avqust 2012-ci Bişkek şəhərində keçirilmişdir və mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olmuşdur. Üçüncü Zirvə görüşü 15-16 avqust 2013-cü ildə Azərbaycanın Qəbələ şəhərində keçirilmişdir. Bu dəfə isə mövzu "Nəqliyyat və bağlantı" idi. Dördüncü Zirvə görüşü "Turizm sahəsində əməkdaşlıq" mövzusu adı altında 4-5 iyun 2014-cü ildə Bodrum şəhərində baş tutmuşdur. Beşinci Zirvə görüşü 10-11 sentyabr 2015-ci ildə "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusu adı altında Qazaxıstanın Astana şəhərində, VI Zirvə görüşü 1-3 sentyabr 2018-ci ildə "Gənclik və milli idmanlar" mövzusunda Qırğızıstanın paytaxtı Bişkekdə, VII Zirvə görüşü "Kiçik və orta sahibkarlığın dəstəklənməsi" mövzusunda 2019-cu ildə Bakıda, VIII Zirvə görüşü 15 oktyabr 2021-ci ildə "Rəqəmsal çağda "yaşıl texnologiyalar" və "ağıllı şəhərlər" mövzusunda İstanbulda, IX Zirvə görüşü isə 2022-ci ilin noyabr ayında Özbəkistanın Səmərqənd şəhərində keçirilmişdir [TDMİƏ, 2015:88-92].

2023-cü il noyabrın 3-də isə Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü olmuşdur. Bu Zirvə görüşündəki nitqində Prezident İlham Əliyev türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas

prioritetlərindən biri olduğunu bəyan etmişdir: "*Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir*" [Həsənov, 2012:40].

Hələlik sonuncu olan Astana görüşündə əldə olunan razılaşmaların türk dövlətlərinin münasibətlərinə yeni töhfələr verəcəyi şübhəsizdir [Məmmədov, 2018:48].

Bu zirvə görüşlərinin bəziləri təşkilatın inkişafı və genişlənməsi baxımından xüsusilə əlamətdar olmuşdur. Məsələn, VI Zirvə görüşündən sonra təşkilatın ən mühüm nailiyyətlərindən biri Macarıstanın paytaxtı Budapeşt şəhərində TDT-nin ofisinin açılmasıdır. Budapeştdə ofisin açılması təklifi Macarıstanın Baş naziri Viktor Orban tərəfindən irəli sürülmüşdü. Ofis türkdilli dövlətlərlə Macarıstan, habelə Avropa İttifaqı və qurumun təsisatları arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında əhəmiyyətli rol oynayır, təşkilatın fəaliyyətinə töhfə verir, inkişafına müsbət təsir göstərir [TDMİƏ, 2015:103].

2019-cu ildə Bakıda keçirilən VII Zirvə görüşü isə təşkilatın yaranmasının 10 illiyinə təsadüf edirdi. 10 illik yubileyin və Bakı görüşünün başqa əsas özəlliyi Özbəkistanın təşkilata tamhüquqlu üzv olması idi. Beləliklə, 2009-cu ildə Naxçıvan sazişi ilə əsası qoyulan və 2019-cu ilə qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu təşkilata həmin il daha bir türk dövləti − Özbəkistan qoşuldu [Məmmədov, 2018:51].

TÜRKSOY-un əsas məqsədi türk xalqlarının ortaq mədəni irsini qorumaq, tanıtmaq və bu sahədə dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. Təşkilat Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistan tərəfindən təsis edilmiş, qərargahı Ankarada yerləşdirilmişdir. Sonrakı illərdə Rusiya Federasiyası daxilində yaşayan türk respublikaları və Moldovanın Qaqauz Yeri də təşkilatın fəaliyyətində iştirak etməyə başlamışdır.

Bu, TÜRKSOY-un yalnız müstəqil türk dövlətlərini deyil, ümumilikdə türk dünyasını əhatə edən mədəni platforma kimi fəaliyyət göstərməsinə imkan yaratmışdır [Həsənov, 2012:55].

Sovet dövründə türk xalqları arasında mədəni əlaqələrin zəiflədilməsi məqsədli siyasətin nəticəsi idi. Ortaq tarix anlayışı parçalanmış, türk xalqları arasında dil və mədəni yaxınlıq ideoloji səbəblərlə kölgədə qalmışdı. Əlifba dəyişiklikləri, terminoloji fərqlərin artırılması və milli tarixlərin ayrı-ayrılıqda formalaşdırılması nəticəsində türk xalqları bir-birindən mədəni baxımdan

uzaqlaşdırılmışdı. Bu səbəbdən müstəqillikdən sonra yalnız siyasi deyil, həm də mədəni dirçəliş prosesi başlamışdır. TÜRKSOY bu prosesdə türk xalqları arasında itirilmiş mədəni bağların yenidən qurulmasına xidmət edən əsas beynəlxalq qurumlardan biri olmuşdur [Həsənov, 2012:57].

TÜRKSOY-un fəaliyyəti əsasən mədəni tədbirlərin təşkili üzərində qurulmuşdur. Təşkilat müxtəlif ölkələrdə konsertlər, festivallar, sərgilər, ədəbi gecələr, elmi konfranslar və tanınmış türk mədəniyyət xadimlərinin yubiley-lərinə həsr olunmuş mərasimlər təşkil edir. Bu tədbirlər türk xalqlarının bir-birinin mədəni irsi ilə tanış olmasına, ortaq dəyərlərin yenidən yada salınmasına və mədəni yaxınlığın güclənməsinə kömək edir [Məmmədov, 2018:50].

2012-ci ildən etibarən həyata keçirilən "Türk Dünyasının Mədəni Paytaxtı" layihəsi TÜRKSOY-un ən tanınmış təşəbbüslərindən biridir. Bu layihə çərçivəsində hər il bir şəhər türk dünyasının mədəni paytaxtı elan edilir və həmin şəhərdə il ərzində müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu proqram şəhərlərin mədəni potensialının tanıdılmasına, turizmin inkişafına və mədəni həyatın canlanmasına müəyyən töhfə verir [TDMİƏ, 2015:97].

TÜRKSOY-un fəaliyyəti nəşr və elmi sahəni də əhatə edir. Təşkilat türk xalqlarının tarixi, folkloru, musiqisi, incəsənəti və mədəniyyəti ilə bağlı müxtəlif kitablar, albomlar və toplular nəşr etdirir. Bu nəşrlər ortaq mədəni irsin sənədləşdirilməsi və qorunması baxımından faydalıdır. Lakin bu materialların çoxu məhdud tirajla çap olunur və geniş oxucu kütləsinə çatmır [TURKSOY, 2020:102].

TÜRKSOY gənclərlə və yaradıcı şəxslərlə iş sahəsində də müəyyən tədbirlər həyata keçirir. Gənc musiqiçilər, rəssamlar, yazıçılar və tədqiqatçılar üçün müsabiqələr, seminarlar və görüşlər təşkil olunur. Bu tədbirlər gənc nəslin türk dünyası çərçivəsində əlaqələr qurmasına və ortaq mədəni dəyərləri yaxından tanımasına şərait yaradır. Bu baxımdan bu təşəbbüslər gələcək üçün əhəmiyyətlidir. Lakin bu proqramların davamlılığı və iştirakçıların sonrakı inkişafına real təsiri üzrə mexanizmlər zəif olduğundan onların uzunmüddətli nəticələri məhdud qalır [Həsənov, 2012:60].

TÜRKSOY-un türk dövlətləri arasında mədəni əlaqələrin inkişafında əsas töhfələrindən biri ortaq mədəni kimlik anlayışının gücləndirilməsi olmuşdur. Təşkilatın fəaliyyəti nəticəsində "türk dünyası", "ortaq mədəni irs" və "türk mədəniyyəti" anlayışları rəsmi sənədlərdə və ictimai diskursda daha geniş istifadə olunmağa başlamışdır. Bu proses xüsusilə post-sovet türk respublika-larında milli kimliyin formalaşması mərhələsində mühüm rol oynamışdır. TÜRKSOY türk xalqlarının yalnız ayrı-ayrı dövlətlər deyil, eyni zamanda ortaq mədəni məkanın üzvləri olduğu fikrini gücləndirmişdir.

Təşkilat eyni zamanda türk dövlətləri arasında mədəni diplomatiya mexanizmi kimi çıxış edir. Mədəni əlaqələr siyasi münasibətlərə nisbətən daha sabit və uzunömürlü olduğu üçün TÜRKSOY bu sahədə əməkdaşlığın qorunmasına və inkişafına töhfə verir. Müxtəlif dövrlərdə türk dövlətləri arasında siyasi münasibətlərdə müəyyən gərginliklər müşahidə olunsa da, mədəni əməkdaşlıq xətti əsasən davam etmişdir. Bu fakt TÜRKSOY-un dövlətlərarası münasibətlərin sosial-mədəni bazasını qorumaqda müəyyən rol oynadığını göstərir [TURKSOY, 2020:58].

TÜRKSOY türk mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması istiqamətində də fəaliyyət göstərir. UNESCO ilə əməkdaşlıq, beynəlxalq sərgi və festivallarda türk mədəniyyətinin təqdim olunması, dünya mədəniyyət tədbirlərində türk incəsənətinin nümayiş etdirilməsi bu sahədə görülən işlər sırasındadır. Bu fəaliyyətlər türk mədəniyyətinin qlobal mədəni məkanda görünənliyini artırır. Lakin bu təşəbbüslər daha çox təqdimat xarakteri daşıyır və genişmiqyaslı mədəni təsir yaratmaq baxımından hələ kifayət qədər güclü deyil [Məmmədov, 2018:52].

Bununla yanaşı, TÜRKSOY-un fəaliyyəti bir sıra problemlərlə üzləşir. Əsas problemlərdən biri maliyyə imkanlarının məhdud olmasıdır. Təşkilat üzv dövlətlərin ayırdığı vəsait hesabına fəaliyyət göstərdiyi üçün onun büdcəsi sabit deyil və bu, uzunmüddətli layihələrin həyata keçirilməsini çətinləşdirir. Maliyyə çatışmazlığı nəticəsində tədbirlərin miqyası daralır, elmi və nəşr fəaliyyəti zəifləyir və davamlı proqramların qurulması mümkün olmur. Bu problem həll edilmədikcə TÜRKSOY-un fəaliyyətinin əsasən simvolik xarakter daşıması riski qalır [Həsənov, 2012:62].

Digər mühüm problem təşkilatın fəaliyyətinin əsasən tədbir və mərasim xarakterli mədəniyyətlə məhdudlaşmasıdır. Festival və yubiley tipli tədbirlər mədəni yaddaş baxımından faydalı olsa da, təhsil sisteminə, akademik mühitə və cəmiyyətlərin gündəlik mədəni həyatına dərin təsir göstərmir. Ortaq dərsliklərin hazırlanması, tələbə və müəllim mübadilə proqramlarının yaradılması, birgə tədqiqat layihələrinin təşkili kimi fundamental sahələrdə TÜRKSOY-un fəaliyyəti zəifdir. Halbuki mədəni inteqrasiyanın uzunmüddətli və davamlı olması üçün bu sahələrdə struktur mexanizmlərin qurulması vacibdir [TDMİƏ, 2015:99].

TÜRKSOY-un qarşılaşdığı digər problem türk dövlətlərinin siyasi maraqlarının və xarici siyasət prioritetlərinin tam üst-üstə düşməməsidir. Bu vəziyyət təşkilat çərçivəsində vahid və uzunmüddətli strategiyanın hazırlanmasını çətinləşdirir. Təşkilat siyasi neytrallıq prinsipi əsasında fəaliyyət göstərsə də, faktiki olaraq üzv dövlətlərin siyasi iradəsindən asılı vəziyyətdə qalır. Bu isə

bəzi hallarda təşəbbüslərin formal xarakter almasına və real nəticələrdən məhrum olmasına səbəb olur [Həsənov, 2012:66].

Bütün bu çətinliklərə baxmayaraq, TÜRKSOY-un türk dünyasında mədəni inteqrasiyanın əsas aparıcı institutuna çevrilməsi üçün real potensial mövcuddur. Bunun üçün təşkilatın fəaliyyətinin prioritet istiqamətləri yenidən müəyyənləşdirilməli və xüsusilə təhsil sahəsində daha dərin əməkdaşlıq mexanizmləri yaradılmalıdır. Ortaq dərsliklərin hazırlanması, tələbə və müəllim mübadilə proqramlarının qurulması, türk dünyası üzrə vahid akademik platformaların yaradılması mədəni inteqrasiyanın struktur əsaslarını möhkəmləndirə bilər. Bu cür mexanizmlər mədəni əlaqələri yalnız tədbir səviyyəsindən çıxarıb sosial institutlar səviyyəsinə yüksəldə bilər [Məmmədov, 2018:49].

**Nəticə/Conclusion**

Beləliklə, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi təşkilatın intellektual təsir gücünü artıra bilər. Universitetlər, akademik institutlar və elmi mərkəzlərlə sistemli əməkdaşlıq mexanizmlərinin qurulması türk xalqlarının tarixi, dili və mədəniyyəti üzrə daha dərin və davamlı araşdırmaların aparılmasına şərait yaradar. Bu isə TÜRKSOY-un fəaliyyətini yalnız mədəni təqdimat səviyyəsindən çıxarıb bilik istehsalı və mədəni siyasət formalaşdırılması mərhələsinə yüksəldə bilər. Müasir dövrdə mədəniyyət sahəsində təsirin əsas vasitələrindən biri rəqəmsal platformalardır. Buna görə də TÜRKSOY-un ortaq rəqəmsal arxivlər, onlayn muzeylər və multimedial layihələr yaratması türk mədəni irsinin daha geniş auditoriyalara çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə atılacaq addımlar təşkilatın fəaliyyətini yalnız regional deyil, qlobal miqyasda da daha görünən edə bilər.

**ƏDƏBİYYAT/REFERENCES**

1. Türk dünyasında mədəni inteqrasiya və əməkdaşlıq (2015). − Bakı: “Elm”. − 280 s.

2. Həsənov, Ə. (2012). Türk xalqlarının mədəni irsi və beynəlxalq əlaqələri. – Bakı: “Təhsil”. – 179 s.

3. Məmmədov, N. (2018). TÜRKSOY-un türk dövlətləri arasında mədəni əməkdaşlıqdakı rolu // “Tarix və mədəniyyət” jurnalı. − №3, s.45-52.

4. TÜRKSOY (2020). Türk dünyasında mədəni əməkdaşlıq fəaliyyəti üzrə hesabat. − Ankara: TÜRKSOY nəşri. – 130 s.

**Məqalə tarixçəsi**

*Daxil olub* *06.02.2026*

*Düzəlişə göndərilib* *08.02.2026*

*Qəbul edilib* *19.02.2026*

*Nəşrə tövsiyə edib* *Piralı Əliyev*

*pedaqogika elmləri doktoru, professor*